

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 122 (23.284)

*5 iyul 2019-cu il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



*Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında qarşıya qoyulan vəzifələrin müzakirəsi ilə bağlı keçirilən yığıncağı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova açaraq geniş məruzə ilə çıxış edib. Bildirib ki, muxtar respublikada vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş tədbirlər 2019-cu ilin birinci yarısında da uğurla davam etdirilib.*

Qeyd olunub ki, cari ilin ötən dövründə təsisat fəaliyyətini, əsasən, insan hüquqlarının müdafiəsi və pozulmasının qarşısının alınması, daxil olan müraciətlərin araşdırılması və müvafiq işlərin görülməsi, hüquqi maarifləndirici tədbirlərin həyata keçirilməsi və insan hüquqlarının müdafiəsi, aid dövlət və yerli özünüidarə orqanları ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində qurub. Bəhs olunan dövr ərzində insan hüquqlarının müdafiəsi və pozulmuş hüquqların bərpası daim diqqət mərkəzində saxlanılıb. Belə ki, Müvəkkilə ünvanlanmış hər bir müraciət araşdırılıb, aid qurumlara sorğular göndərilib və şifahi qəbul zamanı ərizəçilərə hüquqi məsləhətlər verilib. Vətəndaşlar tərəfindən müxtəlif formada daxil olmuş müraciətlərə, həmçinin elektron müraciətlərə qanunla müəyyən edilən müddətlərdə baxılıb və vaxtında araşdırılıb.

Vurğulanıb ki, cari ilin birinci yarısında Müvəkkil hüquqi maarifləndirmə sahəsində fəaliyyətini, əsasən, müxtəlif sosial qruplara ünvanlanan müvafiq tədbirlərin həyata keçirilməsi və maarifləndirici vəsaitlərin hazırlanması istiqamətlərində davam etdirib. Belə ki, hərbi qulluqçuların, məhkumların və əhalinin digər sosial qruplarının hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə işi diqqət mərkəzində saxlanılıb, təsisat tərəfindən müxtəlif sosial qruplara ünvanlanmış 36 tədbir təşkil edilib.

Hesabat dövrü ərzində Müvəkkilin preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 27 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 56 başçəkmə həyata keçirilib.

Müvəkkilin rəsmi internet səhifəsində informasiyaların mütəmadi olaraq yeniləndiyini, qanunvericilik bazasının zənginləşdirildiyini, həmçinin insan hüquqlarının müdafiəsində hüquqi maarifləndirmə tədbirlərinin əhəmiyyətini qeyd edən Müvəkkil Ülkər Bayramova vurğulayıb ki, cari ilin birinci yarısında Müvəkkilin fəaliyyəti, dövlət orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlıq və ictimaiyyətlə əlaqələr sahəsində, həmçinin muxtar respublika əhəmiyyətli tədbirlər barədə Ombudsmanın rəsmi internet səhifəsində və digər kütləvi informasiya vasitələrində, ümumilikdə, 251 informasiya materialı işıqlandırılıb.

Müvəkkil qarşıda duran vəzifələrdən də danışaraq diqqətə çatdırıb ki, təsisat tərəfindən insan hüquq və azadlıqlarının etibarlı təmin edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılacaq, bu sahədə səmərəli hüquqi mexanizmlərin tətbiqi bundan sonra da davam etdiriləcəkdir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində 2019-cu ilin birinci yarımilliyinə həsr olunmuş müşavirəni xidmətin rəisi, polkovnik-leytenant Daşqın Rəhimov açaraq bildirib ki, cari ilin bəhs olunan dövründə çağırışçıların həqiqi hərbi xidmətə çağırılması haqqında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamları əsasında gənclərin həqiqi hərbi xidmətə çağırışı təmin olunub. Çağırışın keçirilməsi haqqında nəzərdə tutulmuş tapşırıqlar xidmət tərəfindən tam həcmdə yerinə yetirilib, yanvar çağırışında 265, aprel çağırışında 291 çağırışçı müddətli həqiqi hərbi xidmətə göndərilib.

Qeyd olunub ki, cari ilin birinci yarısında qarşıda duran digər vəzifə çağırışaqədər gənclərin seçilərək sürücülük məktəbinə göndərilməsi olub. Bu ilin ilk altı ayında 124 gəncin sürücülük məktəbinin tam kursunu bitirdikdən sonra sürücülük vəsiqələri ilə təmin edilərək iyul və oktyabr çağırışlarında hərbi hissələrə göndərilməsi nəzərdə tutulub.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamının icrası ilə əlaqədar olaraq bu ilin 4 aprel və 21 may tarixlərində Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi



ixtisasının tələbələri ilə hamilik tədbiri keçirilib. Həmçinin xidmət Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu ilə birgə aprelin 26-da Gənclər Mərkəzində "Hərbi vətənpərvərlik hissinin gənclərə aşılanmasında gənclər təşkilatlarının rolu və vəzifələri" mövzusunda tədbir təşkil edib.

Xidmət rəisi bildirib ki, hesabat dövründə hərbi kadrların düzgün seçilməsi, yerləşdirilməsi məqsədilə attestasiyanın keçirilməsi təmin edilib. Bundan əlavə, xidmətin idarə və şöbələri tərəfindən hərbi hissələrin hərbi qulluqçularla komplektləşdirilməsi işi davam etdirilib, ehtiyatda olan hərbi vəzifəlilərdən Əlahiddə Ümumqoşun Orduya 140, Fövqəladə Hallar Nazirliyinə 23, Daxili Qoşunlara 38, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına 44, Ədliyyə Nazirliyinə isə 4 nəfər olmaqla, ümumilikdə, 249 hərbi vəzifəli həqiqi hərbi xidmətə göndərilib.

Sonra məruzə ətrafında müzakirələr aparılıb.

* * *

*Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində keçirilən yığıncağı giriş sözü ilə müəssisənin direktoru Behruz Əzimov açaraq görülən işlər və qarşıda duran vəzifələrlə bağlı geniş məruzə edib.*



Qeyd olunub ki, hesabat dövründə muxtar respublika əhalisinin, idarə, müəssisə və təşkilatların neft və maye qaz məhsullarına olan tələbatını təmin etmək üçün bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib. Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən ilin sonunadək muxtar respublikaya 40 min ton A-92 markalı benzin, 120 min ton dizel yanacağı, 20 min ton bitum, 11 min ton mazut, 1200 ton müxtəlif yağlar, 5 min ton maye qaz gətirilməsi nəzərdə tutulub. İlin ilk altı ayı ərzində muxtar respublikaya 15 min 26 ton A-92 markalı benzin, 49 min 817,5 ton dizel yanacağı, 4 min 708,1 ton bitum, 11 min ton mazut, 132 ton müxtəlif növ yağlar gətirilib.

Bildirilib ki, alınan yanacaq muxtar respublikaya İran İslam Respublikasını keçməklə və Bakı-Gürcüstan-Türkiyə marşrutları üzrə daşınır. 2019-cu ilin ilk 6 ayı ərzində Gürcüstan-Türkiyə yolu ilə 11 min 149,9 ton dizel yanacağı və 884,4 ton A-92 markalı avtobenzin, ümumilikdə, 12 min 34,3 ton neft məhsulları daşınıb. İran İslam Respublikasından keçməklə 38 min 549,9 ton dizel yanacağı, 14 min 85,8 ton A-92, 4 min 708,1 ton bitum, 11 min ton mazut, 132 ton müxtəlif növ yağlar, ümumilikdə, 68 min 475,8 ton neft məhsulları gətirilib.

Vurğulanıb ki, müəssisə tərəfindən hesabat dövründə ümumi dövriyyəsi 47 milyon 145 min manat olan 79 min 259,8 ton müxtəlif növ neft məhsullarının satışı həyata keçirilib. Bu da 15 min 299,8 ton avtobenzin, 48 min 743,8 ton dizel yanacağı, 4 min 708,1 ton bitum, 10 min 376,1 ton mazut, 132 ton müxtəlif növ yağlardan ibarətdir. Cari ilin 6 ayı ərzində müəssisə satışdan 484 min manat mənfəət əldə edib.

Naxçıvan Muxtar Respublikasının istilik sistemi olmayan təhsil, səhiyyə, mədəniyyət və turizm müəssisələrində 2018-2019-cu illərin payız-qış mövsümü üçün tələb olunan 159 min 810 litr dizel yanacağı yerlərdə təhvil verilib.

Diqqətə çatdırılıb ki, boruların, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olması daim nəzarətdə saxlanılır və lazımi tədbirlər görülür. Müəssisəyə yanacaq daşıyan avtomaşınlar tam saz vəziyyətdədir, kifayət qədər yanacaq ehtiyatı yaradılıb. İyul ayının 1-nə müəssisənin anbarlarında 1774 ton A-92 benzini, 3 min 737 ton dizel yanacağı, 1490 ton mazut ehtiyatı vardır.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Musiqi Kollecində keçirilən yığıncağı kollecin direktoru Günay Əliyeva açaraq məruzə edib. Bildirib ki, kollecin kollektivi 2018-2019-cu tədris ilinin II yarım ilində iş planında nəzərdə tutulmuş tədbirləri həyata keçirməyə çalışıb.

Vurğulanıb ki, müntəzəm olaraq kollecin istedadlı tələbələrinin konsertləri təşkil olunub. Mart ayının 13-dən 17-dək Bakı şəhərində keçirilən "Testene-Art Baku 2019" III Beynəlxalq incəsənət festival-müsabiqəsində iştirak ediblər. Müxtəlif ölkələrdən 180-ə yaxın iştirakçının qatıldığı müsabiqədə kollecin 9 tələbəsi və 1 müəllimi instrumental ifaçılıq və xalq çalğı alətləri nominasiyaları üzrə yüksək yerlərə sahib olublar, diplomlarla təltif ediliblər. Nağara ixtisası üzrə IV kurs tələbəsi Nəcəf Hacılı isə Qran-Pri mükafatına layiq görülüb və Latviyanın paytaxtı Riqa şəhərində keçirilən beynəlxalq festivalda iştirak etmək üçün vəsiqə qazanıb. O, uğurlu ifasına görə həmin müsabiqənin qalibi olub.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən keçirilən "Lira" intellektual yarışmasında Naxçıvan Musiqi Kollecinin 9 komandası iştirak edib.

Qeyd edilib ki, vaxtaşırı musiqi kollecində təhsil alan gənc istedadlı tələbələrlə tanınmış musiqişünasların görüşləri təşkil olunur. Xalq artisti, bəstəkar, professor Tofiq Bakıxanovla, Türkiyə Respublikasında pedaqoji fəaliyyətlə məşğul olan pianist Teymur Şəmsiyevlə Fortepiano ixtisası üzrə təhsil alan tələbələrin görüşləri yaddaqalan olub. Tələbələrin ifaları dinlənilib, onlara lazımi tövsiyələr verilib.

Diqqətə çatdırılıb ki, cari ilin dövlət imtahanına buraxılan 129 tələbənin hər birinin ifaçılıq və bilik səviyyəsi qiymətləndirilib və imtahan komissiyasının qərarı ilə onlara müvafiq ixtisas dərəcələri verilib. Tələbələrdən 9 nəfəri fərqlənmə diplomuna layiq görülüb, 120 məzun isə subbakalavr diplomu alıb.

Məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## Şəhərimizin siması günü-gündən gözəlləşir

Bu il Naxçıvan şəhərindəki Atatürk küçəsinin hüsnünə yaraşıq gətirən yeni çalarlar əlavə olunub. Küçədəki 14 nömrəli binaya da quruculuq ərməğanından pay düşüb. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin inşaatçıları tərəfindən həyata keçirilən təmir-bərpa işlərinə aprel ayının ortalarından başlanılıb. Obyektin iş icraçısı Ehtiram Əlisoydan aldığımız məlumata görə, 4 mərtəbəli 34 mənzilli yaşayış binasının təməli möhkəmləndirilib, fasad hissədə sütunların bərkidilməsi işləri aparılır. Rabitə və elektrik xətləri yenilənib, su və qaz xətlərinin çəkilişi davam etdirilir, bloklarda suvaq işləri görülür.





Əraziyə kifayət qədər işçi qüvvəsi cəlb olunub. İnşaatçılar lazım olan mal-materialla təmin ediliblər.

Naxçıvan şəhərinin Nizami küçəsi də son illərdə aparılan genişmiqyaslı quruculuq tədbirlərindən lazımınca bəhrələnib. Cari ilin mart ayının 1-dən etibarən küçədəki 40 nömrəli binada əsaslı təmir işləri aparılır. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçılarının çalışdığı obyektdə texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. İş icraçısı Aqil Mirzəyevin dediyinə görə, zirzəmi ilə birlikdə 6 mərtəbəli 50 mənzilli yaşayış binasının hazırda fasad hissəsində beton-qəlib və üzləmə işləri görülür. Yaşayış binasının pəncərələri dəyişdirilir, dam örtüyü hissəsinə torpaq qatı verilir, kommunikasiya xətləri yeniləri ilə əvəzlənir.

**Nail ƏSGƏROV**

# Təbii və mineral sular muzeyi – Naxçıvan

## Söhbətim bu muzeyin məşhur suyu barədədir

*Özünəməxsus təbiəti, fauna və florası ilə əsrarəngiz gözəlliyə, heyranedici füsunkarlığa malik olan Naxçıvanımız, ümumilikdə, bənzərsiz bir təbiət muzeyidir. Burada torpaqdan boy verən hər bir bitki min bir dərdə dərmandır. Dağlarımızın-dərələrimizin yetirib-bitirdiyi saysız-hesabsız nemətlərin hər biri unudulmaz damaq dadıdır. Bağ-bağatlarımızın bu yerlərin bol oksigenli təmiz havasından, saf suyundan ərsəyə gələn yüz çeşidli meyvəsi keyfiyyət və görünüşcə bənzərsizdir. "Şişpapaqlı" dağlarımızın uca zirvəsindən daşların bağrını yara-yara süzülən, torpağın altından qaynayıb çağlayan 230-dək buz bulaqlarımız, su mənbələrimiz isə süfrələrimizin yaraşığı, şəfa ocaqlarımız kimi, həm də bu qədim diyarımızın təbii və mineral sular muzeyidir. Ölkə-ölkə, diyar-diyar, şəhər-şəhər gəzib Naxçıvanımızın adını dillər əzbəri edən belə təbii və mineral sularımızdan biri – "Badamlı" haqqında söhbət açacağam.*

Bir aforizmdə deyilir ki, daşı deşən suyun qüvvəti deyil, damlaların davamlılığıdır. Bu aforizm Şahbuz rayonunun Badamlı kəndi ərazisində dəniz səviyyəsindən 1274 metr yüksəklikdə yer qatının çatlaması nəticəsində beş mənbədən üzə çıxan Badamlı bulaqlarının yaranmasını xatırladır. Həmin mineral mənbədəki bol suyun davamlı damlaları bu qədər yüksəklikdə olan yerin kim bilir, neçə qatının bağrını yarıb öz "varlığını" göstərmişdi. Badamlı qəsəbə sakini, 38 il "Badamlı" mineral sular zavodunda çalışan 73 yaşlı Allahverdi Məmmədov deyir ki, 1945-1947-ci illərdə geologiya-mineralogiya elmləri doktoru Əziz Əsgərovun rəhbərliyi altında ərazidə elmi-tədqiqat işləri aparılaraq burada mineral su yatağı olduğu aşkarlanmış, müxtəlif kimyəvi tərkibli mineral sular sırasında 5 nömrəli bulaqdan istifadə edilməsi məqsədəuyğun hesab olunmuşdur. Suyun tərkibində yod, brom, mis, borat turşusu vardır. "Badamlı" iştahanı artıran, həzm prosesini yaxşılaşdıran, susuzluğu yatıran gözəl süfrə suyu kimi məşhurdur. Bu su mədə-bağırsaq, qaraciyər və öd kisəsi xəstəliklərinə qarşı müalicədə xeyirlidir. Onun tərkibi Rusiyanın Kislovodsk şəhərindəki "Narzan" mineral suyu ilə eynidir.





1947-ci ildə burada kiçik müəssisə yaradılaraq ilk dəfə əl üsulu ilə su istehsalına başlanmışdır. Bu şəfqətli suyun sorağına gələnlər müəssisədə çalışmış, eyni zamanda iş yerlərinə yaxın olsun deyə, ərazidə özlərinə evlər də tikməyə başlamışlar. Müəssisənin fəaliyyəti genişləndikcə burada yaşayanların da sayı artmış, məskunlaşan insanlar həmin evləri genişləndirmiş, bağ-bağat salmışlar. 1961-1967-ci illər ərzində həmin müəssisədə işləyənlər üçün 6 yaşayış binası da inşa olunmuşdur. 2003-cü ilədək bura "Badamlısu" deyirdilər. Beləliklə, ötən əsrdə aşkarlanan mineral süfrə suyu və həmin suyun sorağı ilə əraziyə üz tutanlar "Badamlı"sı ilə tanınan bugünkü Badamlı qəsəbəsinin yaranmasına səbəb olmuşlar.

Onlarla fabrik, zavod, kombinat, məktəb, məktəbəqədər müəssisələr, kənd təsərrüfatı təyinatlı obyektlər, ticarət, məişət, sosial-mədəni müəssisələr kimi "Sirab" mineral sular və "Badamlı" mineral suyunun doldurulması zavodları da ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə muxtar respublikanın möhtəşəm inkişaf mənzərəsinin nümunələrindəndir. Bu, bir faktdır ki, ötən əsrin 80-ci illərində "Badamlı", "Sirab", "Vayxır", "Darıdağ", "Nəhəcir", "Gülüstan" mineral suları ölkəmizin tələbatını ödəməklə yanaşı, bu məhsulların 60 faizi yaxın-uzaq ölkələrə ixrac edilirdi. 1980-ci ildə istehsal olunmuş 134 milyon butulka suyun 80 milyonu SSRİ-nin 150-dən çox şəhərinə göndərilmişdi. 1970-1980-ci illərdə "Badamlı" istehsalı müəssisəsi tamamilə müasirləşdirildikdən sonra burada qablaşdırılan suyun 90 faizi respublikamızdan kənara aparılırdı.

1988-1990-cı illərdən başlayaraq ermənilərin torpaqlarımıza qarşı ərazi iddiaları, sovet sisteminin süquta uğraması, Azərbaycanın səriştəsiz idarəçilərin əlinə keçməsi, ermənilərin xalqımıza qarşı başlatdıqları qanlı müharibə ölkədə bütün sahələrdə bir durğunluq yaratmışdı. 1990-cı ildən Naxçıvanın ermənilər tərəfindən blokadaya salınması muxtar respublikamızın iqtisadiyyatına ağır zərbə oldu. Elektrik enerjisinin, təbii qazın kəsilməsi, Naxçıvanı ölkə ilə birləşdirən quru yolunun olmaması onlarla fabrik-zavodların, istehsal müəssisələrinin fəaliyyətlərinin dayandırılması ilə nəticələndi. Təbii ki, sadaladığım məsələlər "Badamlı" istehsalı müəssisəsinə də təsirsiz ötüşmədi.

1991-1993-cü illərdə – blokadanın ilk və ağır dövründə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda yaşaması, burada rəhbər vəzifədə çalışması ilə muxtar respublikanın iflasa uğramış sosial-iqtisadi həyatında dirçəliş başlandı. Ulu öndərin Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə yarımçıq qalan və burada görmək istədiyi işlər – 1995-ci ildən başlanan və bu gün də böyük uğurla görülən tədbirlər Naxçıvanın inkişaf mərhələsinin əsas leytmotivini təşkil etdi. Muxtar respublikamız blokada şəraitində yaşamasına baxmayaraq, burada bütün sahələr sürətlə inkişaf etməyə başladı. Elə ötən illər uzun fasilədən sonra "Badamlı" suyunun da əvvəlki şöhrətini özünə qaytardı. 2004-cü ildə "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən özəlləşdirilən müəssisə bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən fəaliyyətə başladı. 2009-cu il avqustun 3-də isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən, binanın ümumi sahəsi 9 min 590, istehsal sahəsi isə 3 min 600 kvadratmetr olan "Badamlı" mineral sular zavodu istifadəyə verildi. Müəssisəyə qazlı mineral süfrə suyunu Badamlı yatağından nəql edən uzunluğu 25 kilometr, bu cür qazsız süfrə suyu istehsalı üçün Batabat-Salvartı yatağından 35 kilometrlik iki boru xətti çəkildi. Zavodda mineral suların qablaşdırılması xətlərinin dünyada bir nömrəli istehsalçısı olan Fransanın məşhur "SİDEL" şirkətinin avadanlığı quraşdırıldı. Burada Almaniya avadanlığı ilə təchiz edilmiş laboratoriyalar məhsulun keyfiyyətinə tam zəmanət verir. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu digər mineral sulardan şəffaflığı və qoxusuz olması ilə fərqlənən "Badamlı" suyuna həmin ildə rəy verdi. "Badamlı" mineral suyunun ixrac olunduğu ölkələr sırasında Rusiya Federasiyası, Qazaxıstan, İraq, Çin, Birləşmiş Ərəb Əmirlikləri və digərləri yer alır.

Budur, on il sonra… "Badamlı" mineral sular zavodunun istifadəyə verilməsindən ötən dövr ərzində muxtar respublikamızın iqtisadiyyatının ildən-ilə hərtərəfli inkişafı təbii sərvətlərimizdən daha səmərəli istifadəyə imkan verir. Artıq muxtar respublika ölkəmizin əsas mineral su istehsalçısına çevrilmişdir. Elə "Badamlı" mineral suyuna tələbatın artmasının nəticəsidir ki, hazırda Şahbuz rayonunun Badamlı qəsəbəsində ümumi sahəsi 10 min 590 kvadratmetr olan yeni zavod inşa edilir. Zavod xammal anbarı, istehsal sahəsi və hazır məhsul anbarından ibarət olacaqdır. Burada əsas tikinti işləri başa çatdırılmış, Fransa istehsalı olan avadanlıqlar alınıb gətirilmişdir. Müəssisədə qazlı və qazsız olmaqla, müxtəlif ölçülü qablaşdırmada "Badamlı" suyu istehsal ediləcəkdir. İstehsal prosesi tam avtomatlaşdırılmış şəraitdə və standartların tələblərinə uyğun həyata keçiriləcəkdir. Həmçinin zavodda müasir avadanlıqlarla təmin edilmiş laboratoriyalar istifadəyə veriləcək, istehsal olunmuş məhsulların keyfiyyətinə tam nəzarət ediləcəkdir. İkimərtəbəli inzibati binada işçilərin rahatlığı nəzərə alınaraq iş və texniki otaqlar istifadəyə veriləcəkdir.

Aprel ayının 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Badamlı" mineral sular zavodunun inşası ilə maraqlanmış, istehsal sahəsində avadanlıqların quraşdırılması, zavodun ərazisində, eləcə də Badamlı qəsəbəsində abadlıq işlərinin aparılması barədə tapşırıqlar vermişdir.

Bəli, yaxın gələcəkdə istifadəyə veriləcək "Badamlı" mineral sular zavodunun fəaliyyəti ilə bu möcüzəli suyun şöhrəti, sözsüz ki, dünyanın daha neçə-neçə ölkəsinə yayılacaq. Ulu Yaradanın Naxçıvanımıza bəxş etdiyi bu təbii nemət muxtar respublikamızın iqtisadiyyatına xeyli gəlir gətirəcəkdir.

Mütəxəssislərin maraqlı bir qənaətinə də toxunaraq demək istəyirəm ki, mineral suların tərkibi bioloji fəal ünsürlərin çoxluğu, zənginliyi ilə səciyyələnir və insan orqanizmini müalicə edən qeyri-adi fiziki-kütləvi xassələrə malikdir. Elə bu səbəbdən də mineral sulardan daha çox kurortlarda, poliklinikalarda, xəstəxanalarda, ev şəraitində istifadə olunur. Həm süfrə, həm də müalicəvi su olan "Badamlı"nın sorağı ilə diyarımıza gələnlər arasında onlarla şəfa tapanlar olub. Hətta eşitdiyimə görə, ölkəmizin digər şəhərlərində yaşayan insanlar var ki, buradakı qohumlarının onlara müalicə məqsədilə hər həftə "Badamlı"nın mənbəyindən götürüb göndərdikləri suyu qəbul etməklə sağlamlıqlarına qovuşublar. Və yaxud hər yay bu qəsəbədə yaşayan qohumlarının evində 15-20 gün qalıb həkimlərin süni dərmanlardan ibarət reseptini bir kənara qoyaraq yüz metrlərlə yüksəklikdən çağlayan bu təbii su ilə öd, qaraciyər xəstəliklərinə əlvida deyənlər də var. Badamlı qəsəbəsinin sakinləri şahiddirlər ki, indiyədək istirahət üçün Naxçıvanı seçən onlarla turist buradakı bənzərsiz su haqqında eşidib onun təbii mənbəyini görmək üçün 1274 metr yüksəkliyə qalxıb, bu dağlar gözəlindən doyumsuz təəssüratlarla ayrılıb və bir ovuc suyun sehri ilə hər il bura üz tuturlar. Kim bilir, gündən-günə yeniliklərə imza atan, hərtərəfli inkişafın zirvəsinə doğru inamla addımlayan Naxçıvanımızın məmləkətləri gəzən "Badamlı"sının vətəni Badamlı qəsəbəsi, nə vaxtsa elə o məmləkətlərin insanlarını cəlb edən kurort bölgəsinə də çevrilməyəcək?..

**Mətanət MƏMMƏDOVA**

# Taxıl biçini davam edir

***Muxtar respublikamızda taxılçılıq kənd təsərrüfatının aparıcı və ən vacib sahələrindən biridir. Bu əkinçilik növü ərzaq təhlükəsizliyinin təmin olunmasında, həm də heyvandarlıq təsərrüfatlarının yemə olan tələbatının ödənilməsində mühüm rol oynayır.***

Torpaq-iqlim şəraiti əlverişli olan qədim diyarımızda intensiv becərmə texnologiyalarına üstünlük verməklə əkin sahələri ilbəil genişləndirilir, kənd təsərrüfatına az yararlı torpaqlar əkin dövriyyəsinə qatılır, məhsuldar toxum sortlarından istifadə olunur, suvarma şəbəkələri genişləndirilir, sahibkarlar texnika ilə təmin edilirlər. Görülən işlər taxıl istehsalının da xeyli artırılmasına kömək edir.

Qeyd edək ki, muxtar respublikamızda bu ilin məhsulu üçün 33 min 308 hektar sahədə taxıl əkilib. 1 iyul 2019-cu il tarixə olan məlumata əsasən Naxçıvan Muxtar Respublikası üzrə 12 min 11 hektar taxıl sahəsi biçilib, məhsul istehsalının həcmi 36 min 319 ton, məhsuldarlıq isə 30,2 sentner təşkil edib.



İyunun 25-də "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl əkini sahəsinə gələrək taxıl biçininin gedişi ilə maraqlanan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muxtar respublikada kənd təsərrüfatının inkişafı sahəsində görülən işlər öz nəticəsini verir. Yaradılan şərait, xüsusilə taxıl və qarğıdalının alış qiymətlərinin artırılması həm məhsul istehsalına, həm də bu yolla əhalinin məşğulluğunun təmin olunmasına stimul verir. Muxtar respublikada taxıla olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, taxıl əkini sahələri və məhsuldarlıq artırılmalı, tələbat 100 faiz yerli istehsal hesabına ödənilməlidir".***

Muxtar respublikamızın digər bölgələri kimi, Babək rayonunda da taxıl sahələrində biçin davam edir. Məlumat üçün bildirək ki, taxılçılıq üçün əlverişli iqlim və torpaq şəraitinə malik olan bölgədə bu ilin məhsulu üçün ötən ilin payızında və cari ilin yazında 10 min 610 hektarda taxıl əkilib. Sahələrə vaxtında aqrotexniki qulluq göstərildiyindən bol məhsul yetişdirilib. Bunu biçinin gedişi də göstərir. Belə ki, iyul ayının 1-dək 3951 hektar sahədən 12 min 177 ton taxıl tədarük olunub, məhsuldarlıq 30,8 sentner təşkil edib.

Rayonun Cəhri kənd sakini, torpaq mülkiyyətçisi Nüsrət Qurbanova həmsöhbət olduq. O bildirdi ki, yaradılan şərait, texnika və kombayn təminatı biçin kampaniyasının itkisiz aparılmasına imkan verir. 85 hektar sahədə taxıl əkini həyata keçirən müsahibim dedi ki, bu günədək 45 hektar sahənin məhsulu tədarük edilib.

Nüsrət Qurbanov təsərrüfat işlərində istifadə olunan texnikaları güzəştli kredit hesabına "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətindən alıb.

İllərdir, taxılçılıqla məşğul olan torpaq mülkiyyətçisi bildirir ki, yüksək məhsuldarlığa nail olmaq üçün bütün aqrotexniki tədbirlər, yəni səhənin əkin üçün seçilməsindən başlamış biçinə qədər olan bütün texnoloji proseslər vaxtında və keyfiyyətlə yerinə yetirilir.

Müsahibim onu da bildirdi ki, dövlətimiz tərəfindən hər il güzəştli qiymətlərlə verilən mineral gübrələr, əkilən sahələrdə ziyanvericilərin qarşısını almaq üçün dərman vasitələri, məhsul istehsalçılarına yanacaq və motor yağlarına görə yardımlar becərmə işlərinin səmərəliliyini daha da artırır, məhsuldarlıq getdikcə yüksəlir.

Taxıl strateji məhsuldur və onun istehsalı kənd təsərrüfatının inkişafına bir töhfədir. Sevindirici haldır ki, taxılçılıqda aparılmış islahatlar öz bəhrəsini verməkdədir. Bu sahə ilə məşğul olan torpaq mülkiyyətçilərinin bol məhsul yetişdirmələri üçün dövlət hər cür şərait yaradıb. Əkin sahələrinin su və mineral gübrələrlə təminatının ildən-ilə yaxşılaşdırılması, kreditlər ayrılması, dövlət tərəfindən hər hektar üçün subsidiyalar ödənilməsi torpaq mülkiyyətçiləri üçün stimuldur. Nüsrət Qurbanova da 175 hektar torpaq sahəsi üçün subsidiya verilib.

Göründüyü kimi, muxtar respublikamızda taxıl biçini mütəşəkkil aparılır. İndiyədək əldə olunmuş nəticələr belə deməyə əsas verir ki, bu il də taxılçılarımızın əməyi hədər getməyəcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

*İcbari tibbi sığorta vətəndaşların mənafeyinə yönəlmiş, onların keyfiyyətli tibbi xidmət və dərmanlarla təmin olunmasına yardım edən bir sistemdir. Bu sistemin həyata keçirilməsi ilə insanların hər hansı bir xəstəliyi vaxtında aşkar edilir, onlar böyük xərc çəkmədən müalicə oluna bilirlər. Dünyanın əksər ölkələrində çoxdan həyata keçirilən bu sistemin respublikamızda da bir neçə ildir, tətbiqinə başlanılıb. Söz yox ki, yaxın gələcəkdə Azərbaycan vətəndaşları da həmin sistemdən istifadə etməklə onun bütün yaş qrupundan olan insanlar, xüsusilə də uşaqlar üçün nə dərəcədə faydalı olduğunu görəcəklər. Bir çox ilklərə imza atılan muxtar respublikamızda isə icbari tibbi sığortanın tətbiqinə 2017-ci ildən başlanılıb. Qısa zaman ərzində bu sahədə xeyli işlər görülüb. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İcbari tibbi sığorta işinin təşkili şöbəsinin müdiri Vüsal Məmmədov bu sahədə görülən işlər barədə suallarımızı cavablandırdı.*

# İcbari tibbi sığorta insan amilinə verilən dəyərdir

***– Vüsal müəllim, muxtar respublikamızda icbari tibbi sığortanın tətbiqi insan amilinə verilən ən böyük dəyərdir. Bunu deməyə əsas verən başlıca səbəb isə bu işin ilk olaraq sərhəd bölgəsində yerləşən Sədərək rayonunda həyata keçirilməsidir. Ümumilikdə, tibbi sığortaya keçidin mahiyyəti nədən ibarətdir?***

– Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsi daim milli sosialyönümlü siyasətin prioritetləri arasında mühüm yer tutub. Bu sahəyə dövlət tərəfindən əhəmiyyətli sərmayə qoyuluşu, səhiyyədə texnoloji innovasiyaların və müasir müayinə-müalicə üsullarının tətbiqi ölkəmizdə yüksəkkeyfiyyətli tibbi xidmətlərin göstərilməsinə imkan yaradıb. Əhalinin artmaqda olan



tibbi xidmət ehtiyaclarını qarşılamaq və səhiyyənin uzunmüddətli inkişafına nail olmaq məqsədilə bu sahədə dayanıqlı maliyyə mənbələrinin formalaşdırılması və mövcud resursların daha səmərəli istifadəsi tələb olunur. Bütün bunlar isə, təbii ki, əhalinin sağlamlığına hesablanmış tədbirlər, insan amilinə verilən dəyərdir. Bəli, icbari tibbi sığortanın muxtar respublikamızda ilk olaraq həm ucqar, həm də sərhəd bölgəsində yerləşən Sədərək rayonunda tətbiqi bunu bir daha sübut edir. Bu, sərhəd bölgəsində yaşayan insanlara böyük dövlət qayğısının təzahürüdür. Muxtar respublikamızda bütün işlər ucqarlardan başlanılıb, şəhər və rayonlarımızdakı şəraitlə müqayisədə ilk olaraq onların problemləri həll olunub, yaşayış səviyyələri yüksəldilib. Buna misal olaraq ucqar kəndlərimizdə yaradılan onlarla səhiyyə ocaqlarını göstərmək olar.

İcbari tibbi sığortaya keçid məsələsinə gəlincə, bu, vətəndaşların tibbi xidmətlərə əlçatanlığını və keyfiyyətini artıraraq səhiyyə sisteminin maliyyə potensialını gücləndirmək əhəmiyyəti daşıyır. İcbari tibbi sığorta səhiyyəyə sərf edilən vəsaitlərin səmərəli cəmləşdirilməsinə, bu sahəyə əlavə maliyyə vəsaitlərinin cəlb edilməsinə, dövlət vəsaitlərinin səmərəli istifadə edilməsinə, əhaliyə müasir və keyfiyyətli səhiyyə xidmətlərinin göstərilməsinin stimullaşdırılmasına şərait yaradır.

***– Bəs icbari tibbi sığortanın baza zərfinə hansı xidmətlər daxildir?***

– Təcili və təxirəsalınmaz tibbi yardım, ilkin səhiyyə xidməti, ambulator müayinə və müalicə, stasionar müalicə, funksional-diaqnostik müayinələr, fizioterapevtik xidmətlər, laborator müayinələr, hamiləlik və doğuş xidməti, təcili vaksinasiyalar, uşaqların peyvənd təqvimi əsasında planlı vaksinasiyası, cərrahi əməliyyatlar və müxtəlif xəstəliklər üzrə dispanser müşahidələr.

***– İcbari tibbi sığortanın tətbiq olunduğu yer, söz yox ki, müasir səhiyyənin tələblərinə cavab verə biləcək səviyyədə olmalıdır. Sədərək rayonunda bu sahədə nə kimi işlər görülüb?***

– Əlbəttə, bu sığorta növünün tətbiqi müasir səhiyyə sistemini tələb edir. “Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 3 may tarixli Fərmanı ilə Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 31 may tarixli Sərəncamı ilə “Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə dair tədbirlər planı” təsdiq edilmişdir.

İcbari tibbi sığortanın tətbiqində iştirak edəcək tibb müəssisələrində agentliyin qeydiyyat məntəqələri yaradılmış, kompüter və zəruri avadanlıqlar quraşdırılmış və hər birinə 1 vahid qeydiyyatçı işə qəbul edilmişdir.

Sədərək Rayon Mərkəzi Xəstəxanasında yenidənqurma işləri aparılmış, rayonda yerləşən tibb müəssisələrində ən son texnoloji yeniliklərə cavab verən fiber-optik xətlər vasitəsilə internet şəbəkəsinə qoşulmaqla vahid məlumat bazası yaradılmış və onun idarə olunması üçün server otağı təşkil edilmişdir. Xəstəxanada Yaponiya, ABŞ və Avropa ölkələrində istehsal olunmuş, ən müasir texnoloji yenilikləri özündə birləşdirən tibbi cihaz və avadanlıqlar alınaraq quraşdırılmışdır. Mövcud maliyyələşmə mexanizmlərini yeni iqtisadi əsaslarla təkmilləşdirməklə sığortaolunanlara göstərilən tibbi xidmətlərin keyfiyyətini daha da yüksəltmək mümkün olmuşdur.

***– İcbari tibbi sığortanın tətbiq olunduğu ikinci rayon isə ən çox əhalisi olan Şərurdur.***

– Bəli, ötən dövr ərzində əldə olunmuş uğurlu nəticələrə əsasən bu sığorta növünün əhatə dairəsi genişləndirilmiş, Şərur rayonunda tətbiqi ilə bağlı verilən tapşırıqlara uyğun olaraq bir sıra işlər həyata keçirilmişdir. Belə ki, bu məqsədlə rayon əhalisi üzrə məlumatlar toplanmış, həmin məlumatlar əsasında icbari tibbi sığortaya cəlb olunacaq əhali, tibb müəssisələri və tibb işçilərinə dair mərkəzləşdirilmiş məlumat bazaları, proqram təminatları, reyestrlər yaradılmışdır.

Ali Məclis Sədrinin tapşırığı ilə Şərur rayonunda yaşayan uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması məqsədilə rayon uşaq xəstəxanasının yaradılması, mərkəzi xəstəxanada təcili tibbi yardım, laboratoriya və əməliyyat blokunun ən müasir tibbi cihaz və avadanlıqlarla təmin olunaraq yenidən təşkil edilməsi, bölgədəki həkim ambulatoriyaları və feldşer-mama məntəqələrinin yenidən qurulması, ümumilikdə, görülmüş yenidənqurma işləri, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və müasir tibbi cihaz və avadanlıqlarla təmin edilməsi rayonda icbari



tibbi sığortanın tətbiqinə şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında” 2019-cu il 25 yanvar tarixli Sərəncamına uyğun olaraq iyunun 1-dən rayonda bu prosesə başlanılmış, Şərur Rayon Mərkəzi və Uşaq xəstəxanalarına publik hüquqi şəxs statusu verilərək tibb işçilərinin əməkhaqqı əhəmiyyətli dərəcədə artırılmışdır.

***– İcbari tibbi sığortanı şərtləndirən amillərdən biri də vətəndaşlara verilən şəhadətnamələrdir. Bu barədə nə deyərdiniz?***

– Sığortaolunanlara İcbari Tibbi Sığorta Şəhadətnaməsinin verilməsi məqsədilə 10 min plastik kart alınmış və kartlara məlumatların yüklənməsi üçün “ZEBRA ZPX Series 9” markalı məlumat-yazıcı barkod printer quraşdırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə əhalinin sığortalanması prosesinə başlanılmış və müraciət edən şəxslərlə sığorta müqaviləsi bağlanılmış, şəhadətnamə verilmişdir.

İcbari tibbi sığortanın elektron qaydada həyata keçirilməsi üçün *its.naxcivan.az* domen adı verilməklə elektron portal yaradılmışdır. Onlayn sığortalanma vasitəsilə əhalinin elektron qaydada sığortalanmasının həyata keçirilməsi mümkün olmuşdur ki, bu günədək 500-ə yaxın şəxs elektron müraciət etmiş və onlarla sığorta müqaviləsi bağlanaraq şəhadətnamə verilmişdir.

***– Məncə, icbari tibbi sığorta əhali üçün yeni olduğundan onların maarifləndirilməyə də ehtiyacı var.***

– Təbii ki, icbari tibbi sığorta əvvəlki səhiyyə xidmətlərindən kəskin şəkildə fərqlənir. Buna görə də agentlik tərəfindən maarifləndirmə aparılması məqsədilə müxtəlif broşürlər, məlumat kitabçaları və qısametrajlı videoçarxlar hazırlanmışdır. Səhiyyə işçilərinin biliyinin daha da artırılması məqsədilə müayinə və müalicə protokolları tərtib edilmişdir. Həmçinin yuxarıda adını qeyd etdiyimiz portalda maarifləndirmə məqsədilə xüsusi bölmə yaradılmış, zəngin məlumat bazası yerləşdirilmişdir.

Dünyanın qabaqcıl ölkələrində istifadə edilən *“Fonet”* və *“Medisoft”* informasiya proqramları vasitəsilə “Səhiyyə informasiya idarəetmə sistemi” yaradılmış və icbari tibbi sığortanın tətbiqində iştirak edəcək tibb müəssisələrinin agentlik və Səhiyyə Nazirliyi ilə qarşılıqlı informasiya mübadiləsi təmin edilmişdir. Həmin sistem vasitəsilə sığortaolunanların 6 aydan bir “Chek-up” müayinələrinə cəlb olunması barədə, milli peyvənd təqviminə və dispanser nəzarətə ehtiyacı olan xəstəliklərin müayinə təqviminə uyğun olaraq SMS vasitəsilə məlumatlandırılması təmin edilmişdir. Muxtar respublika əhalisini icbari tibbi sığorta haqqında məlumatlandırmaq üçün agentlik əməkdaşlarının kütləvi informasiya vasitələrində dəfələrlə çıxışları olmuşdur.

***– Əhali kimi, icbari tibbi sığortanın tətbiq olunduğu rayonların səhiyyə işçiləri də, yəqin ki, bu sahədə kifayət qədər məlumata malik deyildilər.***

– Muxtar respublika həkimlərinin xəstələrin müalicəsində daha yaxşı nəticələr əldə etməsi, daim öz bilik və təcrübələrini artırması, əsasən də, təcili qərarlar qəbul edərkən müasir tibbi biliklərin xüsusi bir ardıcıllıqla həyata keçirilməsi üçün Avropa ölkələrində istifadə edilən 145 müxtəlif müayinə və müalicə protokolu dəqiqliklə tərcümə edilmişdir. Həmin protokollara uyğun olaraq tibb işçiləri üçün maarifləndirici seminarlar təşkil olunmuşdur. Şərur və Sədərək rayonlarında keçirilən həmin tədbirlərdə tibb işçilərinə sığortaolunanın müayinə-müalicə hərəkət sistemi, sığortaolunanın icbari tibbi sığorta proqramından istifadə qaydaları, təqdim olunacaq hesabat formalarının yazılması, agentliyin rəsmi internet portalı və sığortaolunanın elektron qeydiyyatı haqqında geniş məlumat verilmiş, eyni zamanda tədbir iştirakçılarını icbari tibbi sığortanın tətbiqi və xidmətlər zərfi ilə əlaqədar maraqlandıran suallar cavablandırılmışdır.

***– Bu günlərdə yeni bir qürurverici xəbər də eşitdik ki, icbari tibbi sığortanın coğrafiyası genişləndirilərək Kəngərli rayonunu da əhatə edəcəkdir.***

– Bəli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin verdiyi tapşırıqlara uyğun olaraq bu məqsədlə zəruri tədbirlər həyata keçirilmişdir. Kəngərli rayonunda icbari tibbi sığortaya cəlb olunacaq əhali, tibb müəssisələri və tibb işçilərinə dair mərkəzləşdirilmiş məlumat bazası yaradılmışdır. Əminliklə demək olar ki, icbari tibbi sığorta qısa zamanda bütün muxtar respublikada yüksək səviyyədə tətbiq olunacaqdır.

***– Vüsal müəllim, icbari tibbi sığorta dünya praktikasında tibbi xidmətlər modeli və həmrəyliyə əsaslanan sosial layihə kimi qəbul edilib.***

– Doğrudur, bu sığorta növü dünya səhiyyəsində geniş yayılmış tibbi xidmətlər modelidir. Buna ona görə həmrəyliyə əsaslanan sosial layihə adlandırırlar ki, insanlar xəstələnmədiyi halda da müəyyən fondlara vəsait keçirir, xəstəliyi olan insanlar yığılan həmin vəsaitdən istifadə etməklə müalicə ala bilirlər. Bu qaydada insanlar həmrəy olaraq bir-birlərinə qarşılıqlı yardım etmiş olurlar. Həmçinin onlar hər zaman, əllərində maliyyə vəsaitinin olub-olmamasından asılı olmayaraq, dövlətin zamanət verdiyi tibbi xid-



mətləri pulsuz əldə edirlər. Qururverici haldır ki, icbari tibbi sığortanın tətbiq olunduğu Şərur və Sədərək rayonlarının qeydiyyatında olan vətəndaşlar hazırda 2019-cu il üçün heç bir vəsait ödəmədən bu sistemdən yararlanırlar. 2020-ci ildən etibarən isə “Tibbi Sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən sığortaolunanlardan sığortahaqqı toplanacaqdır. Müvafiq qanuna əsasən müəyyən əhali qrupu dövlət büdcəsi hesabına sığortalanacaq ki, bu da əhalinin 45 faizə yaxını – hamilə qadınlar, 18 yaşına çatmamış vətəndaşlar, 23 yaşına qədər əyani təhsil alan tələbələr, 65 yaşdan yuxarı işləməyən pensiyaçılar, sosial müavinət, sosial yardım alanlar və əlilliyi olanlardır. Yaxın gələcəkdə ölkəmizdə, eləcə də muxtar respublikamızda icbari tibbi sığorta tam həyata keçirildikdən sonra bu sistemdən ən çox yararlanan, sözsüz ki, əhali olacaqdır. Onlar insan amilinə verilən bu dəyəri hər an hiss edəcəklər.

***– Müsahibə üçün sağ olun.***

**Müsahibəni apardı:**
**✍ Mətanət MƏMMƏDOVA**

# Eksponat hədiyyə edilib



*Qarabağlar Türbə Kompleksinə Naxçıvan şəhər sakini Ziya Əliyev, Şahtaxtı kənd sakini Fatma Musayeva, Qarabağlar kənd sakinləri Aysel Şəfiyeva və Rahilə Şirəliyeva tərəfindən qədim tariximiz və mədəniyyətimizi əks etdirən 70-dən çox yeni eksponat hədiyyə olunub.*

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, muxtar respublikada muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzeylərin əməkdaşları və muxtar respublika vətəndaşları da yaxından iştirak edirlər. Belə ki, son illər muzey əməkdaşları ilə yanaşı, sakinlər də muzey fonduna eksponat təqdim olunmasında maraqlıdırlar. Ötən il muxtar respublika muzeylərinə 1564, bu ilin 6 ayı ərzində isə 1267 yeni eksponat daxil olub. 2019-cu ilin iyun ayınadək, ümumilikdə, 8 eksponat təqdimatı keçirilib. Sevindirici haldır ki, bu aksiyaya artıq yetişməkdə olan gənc nəsil – məktəblilər də qoşulub.

Diqqətə çatdırılıb ki, xalqımızın milli-mənəvi irsi olan qədim tarixi abidələrimiz dövlət qayğısı sayəsində əsaslı şəkildə bərpa olunaraq xalqımıza qaytarılıb. Onlardan biri də Qarabağlar Türbə Kompleksidir. Əcəmi Naxçıvani memarlıq məktəbinin davamçısı, görkəmli memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsi olan Qarabağlar Türbə Kompleksində keçirilən bugünkü tədbir də muzey fondlarının zənginləşdirilməsi istiqamətində reallaşdırılan məqsədyönlü tədbirlərin məntiqi nəticəsidir. Natəvan Qədimova maddi mədəniyyət nümunələrini Qarabağlar Türbə Kompleksinə təqdim edənlərə təşəkkürünü bildirib.

Vurğulanıb ki, sakinlər tərəfindən bu gün türbə kompleksinə təqdim olunan yeni eksponatlar buradakı fond və ekspozisiyanı daha da zənginləşdirməklə yanaşı, Kəngərli rayonunda muzey işinin səmərəli təşkilinə də töhfə verəcəkdir.

Nazir çıxışının sonunda mədəniyyətimizə, tariximizə göstərdiyi böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edib.

Sonra eksponatları kompleksə təqdim edənlərdən Ziya Əliyev, Fatma Musayeva, Aysel Şəfiyeva və Rahilə Şirəliyeva çıxış edərək deyiblər ki, bu gün muxtar respublikada maddi-mədəni irsimizin qorunub yaşadılması və gələcək nəsillərə çatdırılması sahəsində davamlı tədbirlər həyata keçirilir. Hər birimiz bu işə öz töhfəmizi verməyə çalışmalıyıq.

Vurğulanıb ki, sakinlər tərəfindən eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin qorunub yaşadılmasına və gələcək nəsillərə çatdırılmasına xidmət edir. Muxtar respublikada maddi mədəniyyət nümunələrinin toplanmasında bundan sonra da fəal iştirak edəcəyik.

Sonda Qarabağlar Türbə Kompleksinin ekspozisiyası ilə tanış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Xalqımızın böyük oğlu Heydər Əliyev harada olmasından və yaşamasından asılı olmayaraq, gənclərimizin layiqli, bilikli, təhsilli vətəndaş kimi yetişmələrinin, daim əsl azərbaycanlı mövqeyində dayanmalarının vacibliyini dönə-dönə vurğulayaraq deyirdi:* ***"Hər bir millətin, hər bir ölkənin gələcəyi gənclərdir. Biz gənclərimizi nə qədər yüksək təhsilli etsək, onların müəyyən ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək, müstəqil Azərbaycanın gələcəyi və demək, müstəqil Azərbaycanın iqtisadiyyatının inkişafı, elminin inkişafı, təhsilinin inkişafı, insanların rifah halı o qədər də yaxşı olacaqdır…"***

# Gənc İstedadların *"Qızıl kitabı"*nın yeni qürurverici səhifələri

## *Göstərilən dövlət qayğısı muxtar respublika gənclərinin istedad və intellekt potensiallarının inkişafına xidmət edir*

Muxtar respublikamızda da gənclərin yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda tərbiyəsi, onların sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi gənclərə göstərilən diqqət və qayğının məntiqi davamıdır. Müxtəlif sahələrdə fərqlənən istedadlı gənclərin qabiliyyətlərinin qiymətləndirilməsi, onların fəxri adlarla, qiymətli hədiyyələrlə mükafatlandırılması muxtar respublika gənclərinin öz üzərlərində daha səylə çalışmalarına güclü təkan verir.

Belə gənclərimizdən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 24 iyun tarixli Sərəncamına əsasən adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na təhsil sahəsi üzrə salınan ***Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin onuncu sinif şagirdi Siyavuş Bağırov***dur. Bu xəbər onun müəllim və valideynlərinin böyük sevincinə səbəb olub.



Tarix müəllimi Xülya Seyidzadənin şagirdi haqqında dedikləri:

– Muxtar respublikamızda istedadlı yeniyetmə və gənclərin aşkara çıxarılmasına diqqət yetirilir və bu istiqamətdə dövlət səviyyəsində tədbirlər həyata keçirilir. Məktəbimizdə də öz elmi, təhsili, təlim-tərbiyəsi ilə seçilən belə şagirdlərimiz çoxdur. Onlardan biri də Siyavuşdur. O, kiçik yaşlarından öz bilik və bacarığı ilə yaşıdlarından fərqlənirdi. IX sinfi fərqlənmə attestatı ilə bitirib. İndiyədək müxtəlif nailiyyətlər əldə edib. Belə ki, "İstedad – XXI əsr" hazırlıq kursları tərəfindən keçirilən sınaq imtahanlarında dəfələrlə 700 bal toplayıb. 2016-cı ildə həmin kurs tərəfindən keçirilən "10 qazanan" intellektual yarışın qalibi olub, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkil etdiyi "Kitab bilik mənbəyidir" müsabiqəsində II yerə, 2017-ci ildə muxtar respublika fənn olimpiadalarında Riyaziyyat fənni üzrə I yerə layiq görülüb. Həmin il Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən keçirilən "Nuh yurdu" intellektual oyununda fərqlənmə diplomu ilə mükafatlandırılıb. 2018-ci ildə Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar "Nə? Harada? Nə zaman?" oyununda I yer tutub. 2018-2019-cu illərdə keçirilən "Xəmsə" intellektual oyunlarının hər ikisinin qalibi olub.

Siyavuşla həmsöhbət olduğumuzda o qeyd etdi ki, ailədə atam, anam, nənəm ziyalıdır. Ətrafımdakı insanların təhsilə olan sevgisi məni də məktəbə ilk qədəm qoyduğum gündən yaxşı oxumağa, biliklərə yiyələnməyə sövq edib. Çünki görmüşəm ki, təhsilli olmaq hər zaman, hər yerdə böyük nailiyyətlər əldə etməyə kömək edir. Bu gün yaşadığım sevinci sözlə ifadə etmək çox çətindir. Mənə və mənim kimi yüzlərlə şagirdə göstərilən qayğıya görə minnətdaram.

Bu günlərdə Ali Məclis Sədrinin Sərəncamı ilə adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılan və incəsənət sahəsi üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülən ***Culfa şəhər 2 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Duyqu Əliyeva*** da gənc istedadlardan biridir. Onun teatra böyük sevgisi var. Özü də ən çətin spesifikası olan pantomimdən başlayıb və artıq 3 ilə yaxındır ki, "Haçadağ" dram kollektivinin tərkibində fəaliyyət göstərir. Duyqunun sözlərinə görə, dərnəkdə iştirak etməsi ona imkan verir ki, istedad və bacarığını göstərə bilsin: – Burada hazırlanan və oynadığım səhnəciklər mənə çox şey öyrədir. Qazandığım uğurlar məni çox sevindirir. Naxçıvanda ilk dəfə keçirilən "Yaradıcı gənclər festivalı"nda "Teatr yaradıcılığı" nominasiyası üzrə birinci yerə layiq görüldük. Bu uğur məni daha da həvəsləndirdi.



Duyqu incəsənət sahəsində qazandığı nailiyyətlərə görə dəfələrlə diplom və fəxri fərmanlarla təltif edilib: – Ali Məclis Sədrinin Sərəncamını eşidəndə sevincimin həddi-hüdudu yox idi. Həmişə çalışacağam ki, mənə göstərilən etimadı doğruldum. İncəsənət sahəsi üzrə fəaliyyətimi gələcəkdə də uğurla davam etdirmək niyyətindəyəm.

Duyqunun dərnək müəllimi, pantomim dram dərnəyinin rəhbəri Aidə İbrahimova ilə söhbətimiz zamanı bildirdi ki, dərnəyimizin bir çox istedadlı yetirmələri vardır. Onlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülən və adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılan Duyqu Əliyevadır. Duyqu dərnəyə üz tutduğu gündən istedadı ilə diqqəti öz üzərinə çəkə bilib. Verilən bütün tapşırıqları hər zaman layiqincə yerinə yetirib. O həm də rəqs dərnəyinin üzvüdür və Culfa Şəhər Uşaq Musiqi Məktəbinin Fortepiano ixtisasında təhsilini davam etdirir. Orta məktəbdə də yaxşı qiymətlərlə oxuyur.

Aidə xanım deyir ki, belə istedadlı gənclər bizim parlaq gələcəyimizdir. Biz əhatələndiyimiz dövlət qayğısı, istedad və bacarıqlı gənclərimizlə bundan sonra da öz işlərimizin öhdəsindən layiqincə gəlməyə çalışacağıq.

İnanırıq ki, yüksək istedada, bilik və qabiliyyətə, həmçinin əxlaqi dəyərlərə malik gənclərimiz hərtərəfli dövlət qayğısı qarşılığında gələcəkdə Vətənimizin çiçəklənməsi naminə öz bilik və bacarıqlarını əsirgəməyəcək, doğma diyarımızı hər yerdə ləyaqətlə təmsil edəcək, yeni-yeni uğurlar qazanacaqlar.

**Ramiyyə ƏKBƏROVA**
**Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikası üzrə 2019-cu ilin iyun ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1218034 | 121803 | 121924 | 100,1 |
| 2. | Babək rayonu | 797020 | 79702 | 79769 | 100,1 |
| 3. | Şərur rayonu | 768705 | 76871 | 76919 | 100,1 |
| 4. | Şahbuz rayonu | 262211 | 26221 | 26231 | 100,0 |
| 5. | Ordubad rayonu | 395720 | 39572 | 39584 | 100,0 |
| 6. | Kəngərli rayonu | 263822 | 26382 | 26390 | 100,0 |
| 7. | Culfa rayonu | 380730 | 38073 | 38081 | 100,0 |
| 8. | Sədərək rayonu | 91255 | 9126 | 9127 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 4853286 | 875776 | 1046285 | 119,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **9030783** | **1293526** | **1464310** | **113,2** |

## Təsnifat turnirinə yekun vurulub



*Naxçıvan Şahmat Mərkəzinin şahmatçıları arasında keçirilən təsnifat turniri başa çatıb.*

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və şəhər Uşaq-Gənclər Şahmat Məktəbinin təşkilatçılığı ilə keçirilən turnir 3 gün davam edib. 100-dən çox zəka sahibi 9 qrup üzrə mübarizə aparıb.

İsveçrə sistemi ilə keçirilən turnirin yekununa əsasən dərəcəsi olmayanların qrupunda 11 xalla qalib adını Fərid Qurbanov qazanıb. IV dərəcəlilərin qrupunda 10 xalla Yusif Abutalıblı, III dərəcəlilərin qrupunda 8,5 xalla Uğur Mirzəyev, II dərəcəlilərin qrupunda isə 10 xalla Əhməd Sabir qalib adını qazanıblar.

Sonda qaliblər təşkilatçıların diplomları ilə mükafatlandırılıblar.

## Cüdoçumuz üçüncü olub

*Tovuz Olimpiya İdman Kompleksində 2 iyul – Azərbaycan Polisi Gününə həsr olunmuş cüdo üzrə 2003-2005-ci illər təvəllüdlü yeniyetmələr arasında respublika turniri keçirilib.*

Turnirdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirməsi Abbas Məmmədov da iştirak edib. 55 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız üçüncü olub.

Cüdoçumuza təşkilatçılar tərəfindən diplom və medal təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Meyvə və tərəvəz məhsullarının soyuducu anbarlara tədarükü ilə bağlı elan

Muxtar respublikada fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının nəzərinə çatdırılır ki, tələbatdan artıq istehsal etdikləri meyvə və tərəvəz məhsulları soyuducu anbarlara aşağıdakı qiymətlərlə qəbul olunur.

| S/s | Məhsulun adı | Ölçü vahidi | 2019-cu il üçün nəzərdə tutulan qiymət |
|---|---|---|---|
| 1.1 | Kartof I növ | kq | 45 qəpik |
| 1.2 | Kartof II növ | kq | 30 qəpik |
| 1.3 | Kartof I və II növ (50%-50% qarışıq) | kq | 35 qəpik |
| 2.1 | Soğan I növ | kq | 35 qəpik |
| 2.2 | Soğan II növ | kq | 25 qəpik |
| 2.3 | Soğan I və II növ (50%-50% qarışıq) | kq | 30 qəpik |
| 3.1 | Alma I növ | kq | 80 qəpik |
| 3.2 | Alma II növ | kq | 50 qəpik |
| 3.3 | Alma I və II növ (50%-50% qarışıq) | kq | 60 qəpik |

### *Məhsulları tədarük edən soyuducu anbarların ünvanını və əlaqə telefonlarını bildiririk*

| S/s | Hüquqi və fiziki şəxsin adı | Ünvanı | Əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" MMC | Naxçıvan şəhər Ə.Qəmküsar küçəsi | (050) 275-91-71 |
| 2. | "Yusifoğlu" firması | Şərur rayon Məmmədsabir kəndi | (070) 222-13-67 |
| 3. | Fiziki şəxs Mürşid Həsənov | Şərur rayon Məmmədsabir kəndi | (050) 321-41-11 |
| 4. | Fiziki şəxs Ramiz Həsənov | Şərur rayon Danyeri kəndi | (050) 213-55-54 |
| 5. | Fiziki şəxs Gültəkin Əsədova | Şərur rayon Düdəngə kəndi | (050) 668-63-42 |
| 6. | Fiziki şəxs Fizuli Məhərrəmov | Şərur rayon Yuxarı Aralıq kəndi | (050) 314-13-72 |
| 7. | Fiziki şəxs Əhəd Camalov | Şərur rayon Yuxarı Aralıq kəndi | (070) 930-09-79 |
| 8. | Fiziki şəxs Asiman Əkbərov | Şərur rayon Yuxarı Aralıq kəndi | (051) 936-53-34 |
| 9. | Fiziki şəxs Sucəddin Seyidov | Şərur rayon Çərçiboğan kəndi | (050) 687-70-27 |
| 10. | Fiziki şəxs Yaqub Tağıyev | Şərur rayon Cəlilkənd kəndi | (070) 329-29-30 |
| 11. | Fiziki şəxs Qafar Zeynalov | Şərur rayon Cəlilkənd kəndi | (050) 366-77-89 |
| 12. | Fiziki şəxs Qəşəm Kərimov | Şərur rayon Qarabürc kəndi | (050) 314-14-13 |
| 13. | Fiziki şəxs Vəli Zamanov | Şərur rayon Sərxanlı kəndi | (070) 354-70-24 |
| 14. | Fiziki şəxs Elxan Cabbarov | Ordubad rayon Şəhriyar qəsəbəsi | (050) 383-70-89 |
| 15. | Fiziki şəxs Müsrza Əliyev | Ordubad şəhər N.Rzayev küçəsi | (050) 325-87-77 |
| 16. | Fiziki şəxs Əli Əlixanlı | Kəngərli rayon Yurdçu kəndi | (070) 211-14-11 |

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi***

### *İtmişdir*

Orucəliyev Hüseyn Nəriman oğlunun adına olan müəssisənin 000199 inventar nömrəli texniki pasportu və 0015141 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Qarxun kənd sakini Əsgərov Kərim Məmməd oğlunun adına verilmiş JN-437$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Qarxun kəndində yaşamış Əsgərov İbrahim Məmməd oğlunun adına verilmiş JN-436$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1495. Sifariş № 447